SƏYAHƏT ŞEİRLƏRİ

SƏRKƏRDƏ VƏ QIRMIZIPAPAQ QIZ HAQQINDA BALLADA

Başında üçbucaqlı papaq,
Başının üstündə qan ləkəli bayraq.
Zəfər sözü dilində,
Yalın qılınc əlində,
Sərkərdə qanlı səfərə çıxdı;
Yürüş elədi ölkələrə,
Ölüm və qan gətirdi
Ayaq basdığı hər yerə.
At bağlatdı sənətin
Ulu mehrablarına,
Dağ çəkdirdi xalqların
Möhtəşəm vüqarına.
İdrak yaratdığını
Tonqallara qaladı.
Şəhərləri, kəndləri
Vurdu, çatdı, taladı.
Torpağın sinəsindən
Su yerinə qan axdı.
Sərkərdə öz başına
Zəfər çələngi taxdı.
Əlləri diz çökdürdü,
Yurdlara divan tutdu.
Zəfərlər qazandıqca
Gözlərini qan tutdu.
Şöhrətli keçdi onun
Həftələri, ayları.
Nə zaman möhkəm olmuş
Göz yaşından yaranan

Səadət sarayları?
O, tənha bir adada
Sürgünlərdə verdi can.
Əkdiyini biçəcək
Bu dünyada hər insan.
Qan tökdüyü torpaqda
Öz dizləri büküldü.
Zəfər çələngləri də
Xəzəl olub töküldü.

Başında qırmızı papaq,
Əlində zənbil
Balaca bir qız da çıxdı
Həmin ölkədən.
Nənəsinə şirin qoğal,
Bir də süd aparırdı.
Ellərə, obalara şirin dilək,
Arzu, ümid aparırdı.
Nəsil-nəsil uşaqlar
Qırmızıpapaq qızın
Nağılına qulaq asdı.
Qırmızıpapaq qız
Uzaq-uzaq ölkələr gəzdi,
Dolaşdı elləri, obaları,
Oxşadı saçlarını
Dağların, dərələrin
Sərin rüzgarı.
Bulaqlardan su içdi,
Uzun yollardan keçdi;
Könülləri fəth elədi,
Ürəklərdə yuva saldı.
Hər obada, hər oymaqda
Gecələyib qonaq qaldı.
Uşaqlara çox mehriban
Bir dost oldu bu alpapaq.
Nə vaxt əziz olmamışdır
Xoş niyyətlə gələn qonaq?!

Hər ocağın başında
Bu gün belə onun şirin söhbəti var.
Qılıncın da, nağılın da
Həyatda öz qisməti var.
Başında üçbucaqlı papaq,
Əlində yalın qılınc,
Ölkəsindən bəd niyyətlərlə
Çıxan sərkərdə,
Qılıncla fəth eləmək
İstəyirdi cahanı...
Aqibəti yaman oldu
Ağır tənha bir adada.
Sürgünlərdə tərk elədi
İşıqlı dünyanı.
Başında qırmızı papaq,
Əlində həsir bir zənbil
Həmən ölkədən səfərə çıxan qız
Bir gün də qalmadı yalqız.
Məhəbbətlə fəth elədi
Könülləri.
Onu hamı doğma bilir
Tanıdığı gündən bəri.

QÜRBƏTDƏ AXŞAM

Dostum, bu yerlərin qürbətdir adı,
Qürbətdə insanın könlü açılmaz...
Yaralı quş kimi sınar qanadı,
Xəyal bu göylərdə edərmi pərvaz?
Ay bir cığır salıb dənizə nurdan,
Ağaclar başını əyibdir yerə.
Xəyalım dağınıq, könlüm pərişan,
Baxıram bu qərib, yad sahillərə.
Vətən həsrətilə qəlbim döyünür,
Neylərəm cənnəti vətəndən ayrı.
Neylərəm bu əlvan, şux çiçəkləri

Neylərəm, sevgilim, mən səndən ayrı?
Qəribsəyir könlüm bu axşamüstü,
Gözəl mənzərələr qalır geridə.
Şirindir vətəndə hər acı tüstü,
Şirindir vətənin küləkləri də!

1957

RAHİBƏ

Rəngi sapsarı,
dodaqları gömgöy,
Əlləri qapqara bir kösöy
Məryəm ananın surəti önündə
diz çökür.
Duaları
solğun dodağından
Təsbeh muncuqları kimi tökür.
Gözlərini yuxarı dikən zaman
Baxışları solğun bir gənclikdən
verir nişan...
Əynində qara libas,
Başında nişastalı ləçək.
Quru barmaqlarıyla
Sinəsinin üstündə
Xaç çəkir tək-tək.
Nə istəyirsən,
Həzrət Məryəm sənə neyləsin?
Arzunu, diləyini oğlunamı söyləsin
Sən dünyadan əl çəkib
Məhkum etdin özünü,
Yazıq, kimə söyləsin
Məryəm sənin sözünü?
O ki özü dünyanın
Bir kefindən qalmayıb.
Cavanlıqda başına
Qara örtük salmayıb.
Coşqun bir məhəbbətlə

Sevib gizlin, aşikar,
Görürsən qucağında
Hələ körpəsi də var.
O qadındır anadır.
Dadmış şövqü, nəşəni,
Bəs niyə məhkum etmiş
Bir ömür boyu səni?!
Aç başından qaranı,
Gözündən yaşları sil.
Canlı insan kimi bax,
Qadın kimi danış, gül.
İtaliyanın günəşi
Əndamına toxunsun.
Gözlərinin içində
Min bir fərəh oxunsun...
Zümrüd rəngli dənizə
Bir baş vur, bir çim, qaral.
Sən doğma vətənindən
Arzu götür, bir kam al!
Çiçəklərdən ətir çək,
Quşlardan nəğmə öyrən,
Sev, eşqin atəşində
Yan bir ocaq kimi sən.
Çırpınsın həyat eşqi
Gözlərində, qanında,
Bundan ləkə görünməz
İnan ki, vicdanında.
Barsız bir ağac kimi
Quruyursan niyə sən?
Ürəyinə çox yatır
Bu sözlərim deyəsən.
Aç başından örtüyü,
Günəş, bahar eşqinə.
Gəl qucaqlaş həyatla
Xoş arzular eşqinə!..

1957

İT DƏ DARIXIR

Şirmayı rəngli maşının
Sükanından yapışıb
şirmayı barmaqlı əllər,
Sürür maşını küçələrdə:
sürür axşam,
sürür səhər.
İçi məxmər döşəməli maşına
Bir it minib təkbaşına.
Qüssəli gözləriylə
Pəncərədən
Küçələrə həsrətlə baxır...
Maşın sahibi madmazel
Əylənmək üçün iti gəzdirir.
Bu əyləncə özü də bir işdir,
Boş-bekar dolanmaq da
Adi bir vərdişdir.
İt itdir,
İstəyi də it istəyi.
Nəyinə gərəkdir onun
Maşının radiosu,
Qapıların ağ dəstəyi...
İt istəyir ki,
sür-sümükdən
yeyib doysun,
Quyruğunu belinə qoysun.
Oynaqlasın, şıllaq atsın,
Bir toza-torpağa batsın.
Çöl-bayırda
tay-tuş görsün,
İstəyəndə mırıldasın,
İstəyəndə hürsün.
Məxmər döşəkli maşın,
Konfet, şəkər
İtin nəyinə gərəkdir?
Görəsən bu it əzabı

Ah... nə qədər sürəcəkdir?
İtin dırnaqlarını
Manikür etdirir xanım
öz dırnaqları kimi.
Bir balaca əssə yel,
Bürüyür ona şala.
Qoca bir qarı kimi
Hər gün başı daranır,
Hər gün belinə masaj olur,
Madmazelin qoyduğu qayda ilə
İt gah yarımqarın,
Gah da tamam ac olur.
Madmazel əylənir,
Çünki... darıxır.
Yox bircə insanla belə
yaxınlığı, ünsiyyəti,
Hamıdan əziz tutur,
məxmər döşəkdə oturan iti...
Bir deyən yoxdur ona,
Ürəyinə mərhəmət
dolsun axır.
İt də darıxır
madmazel,
İt də darıxır.

1957

HOLLANDİYA ÇİÇƏKLƏRİ

Hər gün təyyarə meydanından
Qalxır havaya təyyarələr...
Dənizlərin üzərindən
Bir quş kimi
süzüb keçir
səhər-səhər...
Təyyarələr uzağa uçur,
Nəhrlərdən, dəryalardan aşıb
Yad bir torpağa uçur...

Sərnişinlər deyil
bu təyyarələri dolduran,
Ağır-yüngül mal da deyil.
Uzaqlara töhfə gedən
Bir cah-calal da deyil...
Öz yurdundan ayrı düşür
Sadə vətən çiçəkləri,
Hollandiyanın əlvan rongli,
Gözəl və şən çiçəkləri.
Hollandiyanın çiçəkləri
Hər gün dünya bazarında
Yığın-yığın satılır.
Qürbət elin havasını
Götürməyib
Tez solur, tez atılır...
Ömrünü bu çiçəklərə
Həsr eləmiş bir bağban
Gözü yaşla dolur, onlar
Qürbətə uçan zaman.
Elə bil ki, balasından
Ayrı düşür bir ana:
Canlı bir dərd bəxş eləyir
Bu ayrılıq insana.

Xatirimdən silinmədi
O gördüyüm gündən bəri
Hollandiya çiçəkləri,
Hollandiya çiçəkləri...
Hər gün uçan təyyarəyə
Bir satın mal kimi doldu
Öz yurdunda ətir saçan
Şux çiçəklər, şən çiçəklər...
Ürəyimə bir dərd oldu
Vətənindən ayrı düşüb
Qürbətdə ölən çiçəklər.

1957

AFRODİTA

Deyirlər, qadının hüsnü, camalı
Tez solur, tez sönüb gedir həyatda...
Səni yaradanın coşqun xəyalı
Heç ola bilərmi bu kainatda?
Əsrlər sürünüb keçmiş yanından,
Zamanın nəfəsi sənə dəyməmiş.
Boranlar, tufanlar, qanlı vuruşlar
Sənə toxunmamış, səni əyməmiş...
Təbiətdən alır insan həyatı.
Təbiət insana həyat, can verir,
Lakin sənətkarın qüdrətli əli
Həyata əbədi bir dövran verir...
İnan ki, ey gözəl, insan hüsnü də
Sənətkar əlilə yüksəlir göyə.
Səndəki gözəllik ölməz sənətdir
İnsanlar sənətə gəlir səcdəyə...

1957

MƏN ÖZ GÖZÜMLƏ GÖRDÜM

Mən öz gözümlə gördüm
Senanın sahilində,
Şumal bir zənci oğlu
Bir fransız qızını
Qollarına almışdı...
Qız da zənci oğlunun
Boynuna qol salmışdı.
Danışıb, gülürdülər,
Məhəbbətin dilini
Nə yaxşı bilirdilər.
Sakit-sakit
Axırdı çay.
Buludların arasından
Oğrun-oğrun
Baxırdı ay.

Elə bil ki, zülmət gecə
Qarışmışdı gündüzə.
Bu mehriban gənclərin
Ehtiraslı nəfəsi,
Bir eşqin dastanını
Bəstələyirdi bizə...
Onlar unutmuşdular,
Atmışdılar hər şeyi,
Şikayəti həyatdan
Tükənməyən gileyi.
Onlar unutmuşdular
İnsanı, məhəbbəti
Sındıran qanunları,
Qaraları ağlardan,
Ağları qaralardan
Ayıran qanunları.
Bir dünyanın kinini,
Qərəzini unutmuş,
Sonsuz nifrət, ədavət
Dünyasında bu gənclər
Bir-birindən bərk tutmuş.
Azad çarpan qəlblərin
Bağlanmış ittifaqı.
Əsrlərdən səslənmiş
Eşqin böyük sorağı...
Qaraların ağları
Sevməsi, sevilməsi
Bu yerlərdə nə qədər
Möhkəm yasaq olsa da,
Başqadır məhəbbətin
Qanunları dünyada!

Paris, 1957

QOCA QIZ – HƏRİS QARI

O heç kəsi sevmədi, xoşlamadı heç kəsi,
Qızdırmadı könlünü xoş bir insan nəfəsi.
Quşları, çiçəkləri, insanları sevmədi,
Son baharın hüsnünü, ilk baharı sevmədi.
Səhər-səhər baxmadı üfüqlərin rənginə.
Gecə valeh olmadı suların ahənginə.
Bir körpənin gülüşü ürəyini açmadı,
Bir gənclik sevdasıyla yuxuları qaçmadı.
Nə sevdi, nə sevildi, nə də ki, ərə getdi.
Qazanc, sərvət eşqiylə ömrü boş yerə getdi.
Aldı, yığdı, gətirdi, yenə gözü doymadı.
Qorxdu ki, şərik olar bu dövlətə, bu mala.
Hər gün qazanc eşqiylə düşdü yeni xəyala.
İndonezіya, Hindistan oldu onun bazarı,
Bəzədi mənzilini müstəmləkə malları.
Gah sələmə pul verdi, bəzən də dərman satdı.
Əlacsız xəstələri min kələklə aldatdı.
Yığdı-yığdı, gətirdi, dünyanı qamarladı,
Damağından getmədi sərvətin şirin dadı.
Büllur, gümüş, şal, qumaş, inci, mərmər gətirdi,
Əlvan rəngli xalılar, ipək və zər gətirdi.
Tablolarla bəzədi soyuq divarlarını.
Anbarlara doldurdu dövlətini, varını.
Su kimi axıb getdi, ömür də yarı oldu,
Qoca qız qocaldıqca, həris bir qarı oldu.
Əcəl gəlib almışdı yastığının yanını,
Ölüm lərzəyə salmış o soyuq vicdanını.
O, səksən beş yaşında ömrə vida edirdi,
Bir yaxşı iş görməmiş bu dünyadan gedirdi.
Qəzəbli bir üsyanla şeylər ona baxırdı.
Qarının gözlərində sanki dünya axırdı.
Dustaq edib illərlə saxladığı əşyalar,
Qızıl, gümüş, şal, qumaş – otaqlarda nə ki var,
Hamı sanki dil açıb üsyan edirdi, üsyan.
Şadlıq qurub bir bayram düzəltmişdilər bu an.
Bu qədər acgözlüklə topladığı bu sərvət,

İndi düşmən kəsilib edirdi ona nifrət.
Yaxın gəlmirdi ona paltarlar, qaş-daşlar da,
Əzizlədiyi şeylər qoymuşdu onu darda.
O, tutqun baxışlarla axtarırdı hər yeri.
O heç kəsə vermədi dövlətindən, varından,
Bircə an ayrılmadı həris arzularından.
İnsanlara nə sevgi, nə də məhəbbət verdi,
Nə bir parça duz-çörək, nə də bir dövlət verdi.
Qoca qız – həris qarı kitabını bağladı,
Öləndə başı üstə sanma kimsə ağladı.
Qapadı gözlərini, doymadı dünyadan da,
Bir-bir olub-keçənlər gəlib düşdükcə yada,
Başqa cür yaşayardım, – deyə – düşünürdü, – mən,
Verilsəydi insana ömür bir də yenidən?!

1957

BOSFOR SAHİLLƏRİNDƏ

İstanbulun üstündə duman pərdə-pərdədir,
Türk qızı namaz üstə, yenə başın yerdədir.
Hərdən göyə qaldırıb o zəif əllərini
Ərz edirsən Tanrıya gizlin əməllərini.
Yalvarırsan Allaha bir oğlunu saxlasın.
Dərdi, ağır möhnəti qoymasın ona yaxın.
Gəl çıxaq bu camenin möhtəşəm binasından,
Yaşıl gözlü Bosforu seyr eləyək bircə an.
Sənінlə gəzə-gəzə gedək sahilə sarı,
Nə xoşdur, nə həzindir Bosforun axşamları.
Türk qızı, əziz bacım, gəmiləri seyr elə,
Qoy könül rübabımız gəlsin bu axşam dilə.
Sən anasan, mənim də analıq şərəfim var,
Anaların qəlbində birdir böyük duyğular.
Oğlun qara fəhlədir, barmaqları qabarlı,
Sənin qəlbin nigaran, könlün daim qubarlı.
Min sıxıntı çəkirsən, güzəranın ağırdır,
Dərdini eşitməyir, tanrın niyə, sağırdır?!
Bosforda lövbər atıb dayanmış iki gəmi,
Hərəsi təmsil edir bir yurdu, bir aləmi.

Birinin göyərtəsi dost, qardaş insanlardır,
Onların arzuları səadətdir, bahardır.
Bu sadə insanların xeyirxahdır niyyəti,
İşıqlı dünyadandır, onlar sevməz zülməti.
O sənə dost dünyanın sadə vətəndaşları,
Əməkçi insanların həm dostudur, həm yarı.
Sakit sularda salmış başqa bir gəmi lövbər,
Bu gəminin üstünə qonmuşdur təyyarələr,
Çəyirtkə kimi qonmuş təyyarələr yan-yana,
Görəsən, bu gəlişlə nəyi etmiş bəhanə?!
Tarixi abidələr, sənin şanın, vüqarın,
Sultan Əhməd camein, müqəddəs mehrabların
Yadelli başmağıyla qoyma ki, tapdalansın.
Sənin ana ürəyin bir məşəl kimi yansın.
Türk qızı, sən qoyma ki, qardaş qanı tökülsün,
Oğulsuz anaların beli vaxtsız bükülsün.
Sən anasan, mənim də analıq şərəfim var,
Anaların qəlbində birdir böyük duyğular.
Haray salıb qaldıraq anaları yuxudan,
Dünyada heç bir ana mürgü döyməsin bu an,
Qalxsın bütün analar, sülh, səadət naminə,
Gələcək nəsillərə gözəl həyat naminə!

* * *

İstanbul duman içində
Ürəyim duman içində
Ümidlərim puça çıxdı
Dağıldı bir an içində.

AZADLIQ BAYRAĞI

Min doqquz yüz qırxıncı il...
Avropanın axır qanı.
Mədəniyyət ocaqları
Olmuş indi hərb meydanı.
Afinanı bürümüşdür lal bir sükut,

Akropolun göylərindən
Çəkilməyir qara bulud.
Yunanıstan torpağını
Bürümüşdür ağır matəm.
Tapdalanan bir millətin
Simasına çökmüş ələm.
Dağ şəhəri – Akropolun
Parfenondur iftixarı.
Parfenon çox yola salmış
Əsrləri, dövranları...
Parfenondan asılmışdır
İndi faşist bayraqları.
Çovğunlu bir qışa dönmüş
Afinanın ilk baharı.
Zülmət gecə, göy gurlayır.
Aramsız bir şimşək çaxır.
Qalaq-qalaq buludlarda
Od qamçıtək iz buraxır...
Elə bil ki, Afinanın
O xilaskar ilahəsi,
Hüsnə əbədiyyət verən
İşıq, bahar ilahəsi
Qəzəblənib coşmuş bu gün.
Göydən yerə yağış tökür
Üstündə qan laxtalanan
Torpaqları yumaq üçün.
Akropolun üç tərəfi
sərt qayadır.
Bir tərəfdən ağ mərmərdən
pillələr
Parfenonun tək yolunu
Kəsmiş faşist avtomatı.
O tək yolda keşik çəkir
Avtomatda hazır duran
güllələr.
Parfenonun üzərində
Qanlı faşist bayrağıdır dalğalanan.
Şimşəklərin işığında
Qara bayquş qanadıtək

Hey çırpınır zaman-zaman.
Hər yerə qara,
Ağır zülmət yayılmışdır boşluqlara.
Elə bil ki, bütün varlıq
Qara qatran bir boyadır.
Akropolun üç tərəfi
Sal qayadır,
Gecəyarı,
Qalaq-qalaq qara bulud
Qapamışdır ulduzları.
Bəs o kimdir gecəyarı
Qanlı izlər buraxdıqca barmaqları
Dırmanır bu daş divara?
Hərdən şimşək buludlarda
Qanlı izlər buraxanda
O tərpənmir, bir daş olur.
Nəfəsi də körpə bir quş nəfəsindən
Yavaş olur.
Göy gurlayır, şimşək çaxır,
O dırmaşır sal qayaya:
Ehtiyatla, yavaş-yavaş,
Tərpənməsin, səslənməsin gərək bir daş.
Barmaqları cadar-cadar,
Son məqsədə hələ çox var.
Alnında tər muncuqları,
Qəlbi vurur yeyin-yeyin.
Əmr eləyir ona ürək:
Qalx yuxarı, qalx yuxarı.
Hərdən qatı qaranlığı
Doğrayırdı odlu şimşək.
Parfenonun üzərində
Çırpınırdı qanlı bayraq
Qara bayquş qanadıtək.
Sübh açılıb üfüqlərə yayılanda
Lalə rəngli şəfəqlər,
Afinanın üzərində
Doğdu aydın bir səhər.
Artıq faşist bayrağından
Qalmamışdı bir nişan.

İndi vətən bayrağıydı
Parfenonun üzərində
Şəfəq kimi alışan.
Seyr etdikcə, dalğalanan
Əziz, doğma o bayrağı.
İnsanların ürəyində
Yandı bir ümid çırağı.
Döyüşlərə çağırırdı
Ürəklərdən gələn səda.
Azadlığın bayrağını
Vermək olmaz bir də yada.
Azadlıqçün döyüşlərə
Qalxdı vətən oğulları,
Al şəfəqə bürünürdü
Afinanın ilk baharı.

Afina, 1957

ELLƏR, İLLƏR

CƏMİLƏ

Sən günəşə boylanan
bir çiçəksən, Cəmilə,
bir çiçəksən...
Bu "təqsirin" ucundan
öləcəksən, Cəmilə,
öləcəksən...
Əsir görmək, qul görmək
istəmirsən vətəni,
Bu "təqsirin" ucundan
öldürəcəklər səni.
Ömrün baharındasan,
iyirmi iki yaşın var,
Min arzuyla yaşayır
iyirmi iki yaşlılar.
Zərif işlər yaraşır
o zərif əllərinə,
Səhər-səhər şeh qonur
bağçada güllərinə...
Çiçəklərə su tökmək,
saz çalmaq incə-incə,
İlk sevda məktubunu
yazıb pozmaq gizlincə.
Səndən kiçik bacının
saçlarını daramaq,
O nazik əllərinə
bunlar yaraşır ancaq...
Sənin cəllad yapışmış
o incə biləyindən,

O qoparmaq istəyir
atəşin ürəyindən
azadlığın eşqini.
Başını gilyatinlə
kəsib atmaq istəyir,
Vətəninə, anana
qan ağlatmaq istəyir.
Çiçəklərə su vermək,
saz çalmaq incə-incə,
Şer yazmaq, söz qoşmaq
sevdiyinə gizlincə
İyirmi iki yaşlıların
bəzəyi, zinətidir.
Bu gün sənin qismətin
Zoyanın qismətidir.
Əsir görmək, qul görmək
istəmirsən vətəni,
Bu "təqsirin" ucundan
öldürəcəklər səni.
Anaların qəlbində,
yanır nifrət odları,
Bir qəzəblə çırpınır
dünyanın şah damarı,
Dayandırmaq əzmilə
o qansızı, Cəmilə!
Qarayanız, ərəb qızı Cəmilə!
İradən mətindir, Cəmilə,
mətindir...
Vətəndə qul olmaq
çətindir, Cəmilə,
çətindir...
Uzaq-uzaq bir diyarda
xəyalının dünyası var,
Uçub gedir o diyara
qəlbindəki xoş arzular,
Orda azad nəfəs alır
Yaşıl düzlər, göy təpələr.